**İlhamə İSMAYILOVA**
**Mingəçevir Dövlət Universiteti**
**Pedaqogika və psixologiya kafedrasının baş müəllimi**
**ilhameismayilova32@gmail.com**

**Aygün İSMAYILOVA**
**Mingəçevir Dövlət Universiteti**
**Pedaqogika və psixologiya kafedrasının müəllimi**
**aygun.ismayilova.87@inbox.ru**

# NİZAMİNİN ƏSƏRLƏRİNDƏ HİSSLƏR ALƏMİ

Nizami Gəncəvi insanın hisslər aləmini, Şərq poetikasının rəmzlərinə müvafiq olaraq, "qəlb", "ürək" dünyası kimi səciyyələndirirdi. Onun fikrincə, insanınkı "qəlb yoludur", o, "qəlbi dərk etməyə" qoşmamalıdır. Nizaminin təhlillərində hisslər aləmi insanın həyat fəaliyyətinin xüsusi sahəsini təşkil edir. "Ürək qüvvətlidir can qüvvətindən". İnsan özünə inanmayanda, hətta öz qorxusunu gizlətsə belə, "qorxulu ürəklə meydana girdiyi" üçün məğlubiyyətə uğrayır.

Nizami Gəncəvi göstərirdi ki, insanın psixoloji sağlamlığı bilavasitə mürəkkəb hisslər aləmi ilə şərtlənir. "Rəngimi gör, halımı soruş" – bu özünəməxsus aforizmlə şair XII yüzillikdə hisslər haqqında bərqərar olmuş tibbi psixoloji fikirləri məharətlə ifadə etmişdir. Nizami hisslərin dilinə, əlifbasına diqqəti cəlb edərək qeyd edirdi ki, insan sirr saxlayanda saralır. "Səbrin ucbatından" "od tutur", "külə dönür", səbr onu "yandırıb" saraldır, sirri başqa adama açanda, hətta "quyuya" "izahat eyləyəndə" qəlbindəki yanar atəş sönür, "ürəyi" dincəlir, həsrət də "ömrü qırır, saraldır üzü", "göz yolda qalanda" ürək "bölünür", insan "qəmlə möhnətdən" xəstə düşür, əgər "bir dərdi gizlində çəksə, möhnət onun ömrünü çürüdür".

Nizaminin hisslər aləmi mürəkkəbdir, özünəməxsus ziddiyyətlərlə seçilir. Nizami hisslərin ambivalentliyini fenomenoloji baxımdan xüsusilə ətraflı təsvir etmişdir. Hisslər nəzəriyyəsi üçün mühüm əhəmiyyətə malik olan bu qanunauyğunluq insanın özünün tələbat-motivasiya sahəsinin çoxçalarlı quruluşu ilə şərtlənir. “Xosrov və Şirin” və “Leyli və Məcnun”da psixoloji baxımdan eynitutumlu emosional hallar son dərəcə dəqiq təsvir olunmuşdur. Şirin Məryəmin ölümü xəbərini eşidəndə bir yandan şad olur, bir yandan da qəmlənib ah çəkir. Məcnun isə İbn Səlamın ölümünə sevinir, ancaq eyni zamanda ağlayır, ağrıları udur. Nizami bu halətlərin motivini psixoloji cəhətdən eyni ölçülərlə təsvir edir. Şirin də, Məcnun da Məryəmin və İbn Səlamın rəqibi kimi sevinirlər, lakin bir insan kimi onların ölümündən kədərlənirlər. Eyni bir xəbər bu axarda həm “sevinc”, həm də “qəm, kədər” gətirir.

Hisslərin ambivalentliyi adlanan bu xüsusiyyəti Nizami “Xəmsə”də ümumi psixoloji aspektdə geniş təsvir etmişdir. O öz qəhrəmanlarının taleyində məharətlə göstərirdi ki, eşqdən insan həm gülür, həm də ağlayır. Bəzən “sərtliklə yumşaqlıq” eyni kökdə gizlənir. Şairin müşahidələrinə görə, hətta ilk baxışdan bir-birinə zidd olan fenomenoloji sərgidə özünəməxsus şəkildə uzlaşırlar. Onun fikrincə, “sevən ürəklərdə qısqanclıq olur”, “hər qorxu içində bir ümid də var, ümid zamanında qorxu da olar”.

Nizamiyə görə, “İşdə dönüklük var, sevgidə hicran”, “şirin ayrı olmaz əsla acıdan”.

Ünsiyyət məqamında bu məziyyətlər özünü necə göstərir? Nizami onları müxtəlif yönümdə təhlil etsə də, bir cəhətə xüsusi diqqət yetirirdi. Onun fikrincə, insan ünsiyyət məqamında adamların özünənəzarətini bilavasitə nəzərə alır, istər-istəməz öz hisslərini gizlədir. Hisslərin gizlədilməsi hətta müasir psixologiya üçün də aktual olan mürəkkəb fenomendir. Bu faktın empirik surətdə olsa da müəyyən edilməsi XII yüzillikdə Azərbaycan psixoloji fikrinin böyük uğuru idi. Nizami son

dərəcə mürəkkəb olan həmin məsələnin təhlilində zamanın böyük şairi və psixoloqu kimi bənzərsiz idi. O, hisslərin gizlədilməsi motivlərini insanın özünün sosial inkişaf şəraitinin xüsusiyyətləri, şəxsiyyətlərarası münasibətlərin xarakteri, özünütəsdiq meyilləri ilə izah edirdi.

Şirin Xosrovun hərəkətlərindən acıqlansa da, şaha naz eyləyir. O görür ki, "hüsnünə çox müştəri var". Fərhada Şirinin guya qəflətən ölməsi xəbərini yetirəndə qasid "ah çəkib yalandan ağlayırdı". Xosrov öləndən sonra Şiruyə Şirinə gizlicə xəbər göndərib onu istədiyini bildirəndə Şirin "sirkətək tündləşib, şirtək coşsa da", onu "al dilə tutaraq" "ram etdi".

Leyli "bütün möhnətlərə dözə-dözə" "çəkdiyi ağrını üzə vurmazdı", şam kimi gülərək qızarsa da, ürəyi gülməzdi.

İbn Səlam Leylinin dərdindən "hünərlə səbr etsə də, qəmlə gəzərdi", "özünü aldadıb", "dərdə dözərdi". Leyli təklikdə ağlardı, əri gələndə gözünü silərdi, təklikdə inlərdi, əri olan yerdə isə gizli ağlardı. İbn Səlam öləndə də Leyli qəlbində özünün faciəli məhəbbəti ilə yaşayırdı. Nizami onun halətini belə təsvir edir:

Zahirdə ərinə matəm saxlardı,
Batində Məcnunu anıb ağlardı.
Saçını yolardı anıb Məcnunu,
Guya ki, əriyçün eyləyir bunu.
Ərinin üstündə etdiyi şivən
Məcnunu oxşardı yalnız ürəkdən.

Nizami insanın hisslər aləmini şəxsiyyət baxımından təhlil edirdi. Bu cəhət hisslərin gizlədilməsinin də mahiyyətini aşkarlamaq üçün əsasdır.

Fitnə Bəhramdan "hayfını" almaq ehtirası ilə yanırdı. Şah ovlaqdan Sərhəngə qonaq gedəndə Fitnə "bəzəndi, düzəndi, döndü gəlinə", " Nərgiz xumarlığı verdi külünə":

Şətarət sürməsi çəkdi gözünə,
Nazdan pərdə saldı kinli üzünə.

Fitnə kin saxlayırdı. Nizami "hurisifət" Fitnənin öz hisslərini gizlətməsinin köklərini də məhz onun şəxsiyyəti ilə əlaqələndirir. Nizaminin təsvirində Fitnə məhz "hiyləgər", "ədalı", "dargöz" qadın kimi səciyyələndirilir. Bu axarda Nizami müasir psixologiyada xüsusi aktuallıq kəsb edən maska ideyasına gəlib çıxır: insan öz hisslərini sadəcə gizlətmir, həm də onları mahiyyətcə ünsiyyət məqamı üçün optimal olan saxta ekspressiv çalarlarla ifadə edir. Müvafiq ekspressiv çalarlar isə insanın hər hansı bir adama əsl münasibətini deyil, ünsiyyət şəraitində onun öz qarşısına qoyduğu kommunikativ məqsədləri əks etdirir. Nizami bu baxımdan emosional halətlərin təsvirinə xüsusi diqqət yetirir. Şair Nizami üçün qəhrəmanlarının hisslər aləminin təsviri psixoloji təhlil vasitəsi kimi poetika məsələsi idi. Lakin bununla belə, emosional halətlərin təsviri həm də psixoloji baxımdan önəmli idi. Psixoloq Nizamini onlar ilk növbədə fenomenoloji səpkidə maraqlandırırdı. "Xəmsə"də hətta bəzi hekayətlərin (məsələn, "Xosrov və Şirin"də "Şirinin ova getməsi və oradan Mədainə qaçması", "Leyli və Məcnun"da "Leylinin eşqi ilə Məcnunun ağlayıb-sızlaması", "Leylinin əhvalı haqqında" və s.) bilavasitə emosional halətlərin təsvirinə həsr olunması, görünür, təsadüfi deyildir.

Şirin, Məhinbanu, Leyli, Xosrov, Fərhad, Məcnun və b. obrazların və emosional halətlərinin təsvirində Nizami bu özünəməxsus psixoloji fenomen üçün səciyyəvi olan müxtəlif cəhətləri təsvir edir. Bunlardan aşağıdakıları xüsusilə qeyd etmək olar:

1. Emosional halətlərin fenomenoloji xüsusiyyətləri insanın ilk növbədə özünə və onun şəxsi məna kəsb edən hadisələrə, xüsusilə sevdiyi adama münasibətinin xarakteri ilə bilavasitə

bağlıdır. Bəzi hallarda o, hətta insanın özünü unutması, öz hisslər aləmi ilə yaşaması ilə nəticələnir. Məcnunun fenomeni bu cəhətdən xüsusilə səciyyəvidir. Əksər hallarda isə emosional halətlərin əmələ gəlməsi və inkişafı insanın psixi həyatında affektiv amillərin rolunun artması ilə xarakterizə olunur. Ancaq o özünü nəinki unutmur, həm də persepsiya obyekti kimi fərqləndirir. Başqa adamların reaksiyalarını bilavasitə nəzərə alır.

2. "Xəmsə"də insanın hisslər aləmi müxtəlif səpkidə geniş təsvir edilmişdir. Nizaminin əsərlərində insanın hisslər aləmini bənzərsiz ölçülərlə əks etdirən çoxçalarlı emosional halətlər – sevinc, peşmançılıq, qəm-qüssə, qeyz, dərd-sər, kədər, qorxu, hirslənmək, hicran, vahimə, şadlıq və s. psixoloji baxımdan dəqiq təsvir olunur.

Nizami göstərirdi ki, insan "kədərdən cana gəlir", "həsrət, intizardan xəstələnir", "ayrılıq çəkmək" "ağır bir bəladır", qəm-kədər isə "işgəncəsiz olmur", xüsusilə "yatanda qüssə artır". Qüssə isə "adamı cana gətirir". Məyusluq insanın dünyadan əl-ayağını soyudur, "xilas yolundan" "xeyli uzaq düşür".

Nizami özünün sevimli qəhrəmanlarını, xüsusilə Şirinlə Leylinin emosional həyatını psixoloji realizmin bu sərt qanunları ilə təsvir edir. Bu haqda aydın təsəvvür əldə etmək üçün təkcə "qorxu bədnamlıqdan ismətli Şirin" beytini xatırlamaq kifayətdir.

Nizaminin əxlaqi hisslərin mahiyyətcə sosiogen xarakter daşıması barəsindəki fikirləri də son dərəcə maraqlıdır. Həya, ar, namus, ismət kimi əxlaqi hisslər şəxsiyyətlərarası münasibətlərdə əmələ gəlir və əslində onları tənzim edir. Həya, ar, namus, ismət sosial normalara əsaslanır:

Heç kəslə qaydasız danışma ki, sən
Axırda utanıb üzr istəyəsən.

Həya, ar, namus, ismət güclü hisslərdir. Həyadan insanın canına "od yayılır". İnsanı "həya təri basanda" onun nəinki başqa adamlara, həm də özünə münasibəti dəyişir. O hətta adi baxışdan belə utananda gözlərini gizlədir, əlini üzü ilə tutur, "suya düşmüş at kimi" titrəyir. Nizaminin hisslər aləmi mürəkkəbdir, özünəməxsus ziddiyyətlərlə seçilir. Nizami hisslərin ambivalentliyini fenomenoloji baxımdan xüsusilə ətraflı təsvir etmişdir. Hisslər nəzəriyyəsi üçün mühüm əhəmiyyətə malik olan bu qanunauyğunluq insanın özünün tələbat-motivasiya sahəsinin çoxçalarlı quruluşu ilə şərtlənir.

**Aygun Ismayilova**

## THE WORLD OF FEELINGS IN NIZAMI`S WORKS

***Summary***

In Nizami's works, psychological issues of feelings are analyzed in different directions. For the poet Nizami, the description of the parts was primarily a means of psychological analysis. This aspect must be taken into account when studying Khamsa's poetics. However, in his unique works, Nizami not only described the multifaceted world of emotions of his heroes, but also summarized the facts of his life, defined by the logic of the literary word and analyzed in detail many important regularities of feelings.